# Kredo

Müstəqil ictimai-siyasi, publisistik qəzet №21 (1277) 14 iyun 2025-ci il Qiyməti 1 manat Qəzet 1999-cu ilin oktyabrından çıxır

## Yədulla AĞAZADƏ - 75

# SÖZƏ HEYRƏTİN KÖNÜL SƏMASINDA

*Sevinirəm ki, yaxından tanıdığım, insanlığına, intellektinə yaxından bələd olduğum, monoqrafiya və elmi məqalələrini maraqla oxuduğum, elmi-pedaqoji uğurları ilə fəxr etdiyim alim dostum Yədulla Ağazadə Xələfli sözünün aşiqləri, ardıcıl tədqiqatçıları sırasındadır.*

**Məsud MAHMUDOV, professor.**

*Mən də sevinirəm ki, böyük alim Yədulla Ağazadə Füzuli sözünün, sənətinin heyrətamiz aşiqləri sırasındadır. Füzuli sözünə, sənətinə aşiqlərin göylərin özü qədər duru, təbiətin özü qədər saf və təmiz olduğuna varlığım qədər inanıram.*

**Əli Rza XƏLƏFLİ.**



## YAZMAĞIN UCALIĞINDA

Əzizim Yədulla Ağazadə, dünyanın Sədisayaq desəm, işlərinin zənci saçları kimi qarışdığı bir məqamda insanlığın özünü qoruma instinkti nə qədər güclü olsa da, ruhun sağlamlığını hifz etmək heç də asan deyil. Mən sevinirəm ki, həyatımızın illəri sürətlə ötürən çağında yenə bir kök üstə eyni könül çırpıntıları ilə yaşamaqdayıq. Bir az da aydın desəm, dostluğu qorumağın fədakarlıq, az qala ölüm-dirim savaşı qədər çətin olduğu bir vaxtda yenə dost olaraq üzü sabahlara doğru gedilib. Sabahların sonu isə əbədiyyətə qapı açır.

Mən həmişə demişəm və fəxr etmişəm ki, dostlarımı hər vaxt başda özümdən üstün bilirəm. Amma sən həm başda böyüksən, həm də yaşda. Ən başlıcası, tanıdığım iyirmi beş ilə qədərki zaman yolunda səni hər vaxt uca gördüm.

Çətindir, kimliyini tanıtdığın insanlara özünü olduğun kimi axıracan qoruyaraq özünün, sözünün mötəbərliyinə inamı da hifz edəsən.

Onsuz da bu həyat dəyirmanı daşı-daşa sürtmür, onun üyüdəcəyi xammal var. Amma taxıl üyünəndə un yaranır, mayası halaldırsa, o çörək müqəddəs tutulur. Dostluqda da belədir. Ünsiyyətdə tamlıq, mənəvi dəyərlərə sadiq olmaq gücünü həqiqətə çevirə bilirsənsə, ülvi ünsiyyət körpüsünün özülləri dağılmır.

"Pirlər bulağından novatorluğa" monoqrafiyan, "Xələflinin söz dəyirmanı" essen, çoxlu sayda məqalələrin... məni inandırıb ki, sevgilərin tükənməyən qaynağı ruhun sağlamlığından çağlayıb gəlir.

Açığı deyim ki, sənin ədəbi-bədii portretini yaratmaq üçün ruhi çırpıntılar yaşamışam. Çünki sənin ucalığına baxanda sən Füzulidən necə heyrətlənirsənsə, mən də səndən eləcə heyrətlənirəm.

İyul ayının 1-i günəşin bütün gücü ilə isti çağladığı zaman sənin 75 ilin tamam olur. Ancaq mənə elə gəlir ki, qəlbinin hərarəti heç vaxt azalmayacaq. Elə sənin doğum gününün odu, atəşi kimi könülləri işığa, nura qərq edəcək.

Bu qeydləri at üstə yazdım. Ömrümüz qaçaqovda keçir. Yaxşı olan odur ki, sən heç vaxt məndən kənarda deyilsən, qəlbimdəsən, məni yaşamağa, yaratmağa çağırırsan.

Sözə heyrətin könül səmasında yazmağın ucalığında var ol, sözünlə əbədi yaşarısan!

*Əli Rza XƏLƏFLİ*

*11.06.2025*